# İGİDLİYİN POVESTİ

*(Əvvəli ötən sayımızda)*

Qəhrəmanlıq insan təbiətinin nadir keyfiyyətidir. Bu, nəslin genində yaşayan xüsusi əlamət kimi vacib olan anda üzə çıxır. Cəsarəti, igidliyi, qorxmazlığı nə qədər təlim-tərbiyənin nəticəsi kimi qavrayırıqsa, bir o qədər də gendən gəlmə keyfiyyət, irsi varisliyin davamı kimi də elə bir o qədər qavrayırıq. Başın yekəliyinin insanın ağlının çoxluğuna, azlığına dəxli olmadığı kimi, qəhrəmanlıq da insanın zahiri görkəmindən asılı deyil. İnsan mənəvi üstünlüyü ilə, daxili zənginliyi ilə qəhrəmanlıq keyfiyyətlərinə sahiblənir. Bunun üçün o, damarlarında çağlayan qanın enerjisindən güc alır.

Şəddad Cəfərovun şərti olaraq "İgidliyin povesti" adını verdiyimiz "Nəsillərə nümunə" əsərində sanki qəhrəmanlığın, igidliyin anatomiyası verilir. Biz, Baloğlan Rüstəmovun döyüş yolunu addım-addım izlədikcə, onun döyüşdən-döyüşə necə yenilməzlik qazandığını da müşahidə edə bilirik. Bu günün müharibə qəhrəmanı ilə, Baloğlan Rüstəmovun qəhrəmanlıq taleyi arasında qırılmaz bağlılıq var. Bəzən cansız, çəlimsiz kimi görünən bir gəncin - azərbaycanlı igidin Qarabağ savaşındakı xronikalardan görünən cəsarəti bizdə təəccüb doğurmur. Çünki bu gənc özünü haqlı bilir. Doğma torpağının üstündə dayandığı üçün cəsarətini varlığında bütün tamlığı ilə duya bilir. Baloğlan Rüstəmovun qəhrəmanlığında da həmin oxşar cəhəti hiss edirik. Çünki onun üçün üzərində dayanıb vuruşduğu torpaq Vətən idi. Hər kəs öz vətənində yenilməzdir, güclüdür. Bizə elə gəlir ki, Şəddad Cəfərov bu əsəri ilə məhz bu ideyanı öz oxucusuna təlqin etmək istəyir, azərbaycanlı savaşçıya bu həqiqəti aşılamaq istəyir. Qəhrəmanla müəllif arasındakı doğmalığın özü də müəllifin məqsədini, məramını həqiqətə çevirmək yolunda bir vasitədir. Şəddad Cəfərov sevdiyi qəhrəmanları özünə doğma bilir.

* * *

Döyüşü görənlər, onun dəhşətini yaşayanlar üçün ölüm çox vaxt adiləşir. İnsanlar ölümü çox gücsüz görürlər. Əlbəttə, bu qorxmazlar üçün belədir, qəhrəmanlar üçün belədir. Şəddad Cəfərov üçün də öz qəhrəmanını belə od-alovun içində qorxmaz kimi görməsi, onu bir igid kimi tərənnüm etməsi təbiidir. Çünki o, qəhrəmanının həyat yolunu çox dəqiq öyrənib. Qəhrəmanlıq dövrü öz mahiyyətinə görə hər vaxt var. Əlbəttə, B.Rüstəmovun qəhrəmanlıq dövrü 75 il bundan əvvələ aiddir. Ancaq hər dövrün öz qəhrəmanlığı olduğu üçün qəhrəmanların həyatı hər vaxt önəmlidir və öyrənilməlidir. İndi Şəddad Cəfərovun təsvirlərində odun, alovun içincə ölümün üstünə yeriyən B.Rüstəmovu görmək də bizim üçün təbiidir. Axı biz onun həyatını həyəcanla izləyirik: "Baloğlan döyüşçüləri qabaqlayaraq irəlidə qaçırdı. Öz sinəsi ilə küləyin qarşısını alan döyüşçülər də var. Gücləri ilə düşmənə qədər olan məsafəni qət edərək irəliyə doğru hərəkət edirdilər. Başqa bölüklər də düşmənə ağır zərbələr endirirdi. Rüstəmov da döyüşdə həlak olmuş yoldaşlarının intiqamını almaq üçün doğma xalqı, Vətəni Azərbaycan uğrunda vuruşurdu. Sol və sağ tərəfdən hücum bir qədər səngidi. Bir az keçməmiş yenidən döyüş təkrarlandı. Bu dəfə də uğursuz nəticələndi. Ancaq müəyyən bir vaxtda artileriyanın köməyi ilə döyüşçülər yaşayış məntəqələrinə, rayon mərkəzlərinə, şəhərə hücum çəkir, orada olan əhalini faşist işğalçılarından azad edirdilər. Elə olurdu ki, döyüşçülərimiz gecələr hərəkət edirdilər. Ayaqları qabar-qabar olurdu. Dəfələrlə müxtəlif irili-xırdalı çayları keçirdilər. Günlər bir-birinin ardınca ötüb keçirdi. Döyüşçülərlə birlikdə Baloğlan Rüstəmov da kənddən taxda daşıyır, bəndlər düzəldirdi. Dəfələrlə elə olurdu ki, düşmənlər raket atdıqdan sonra pulemyot və minaatanlardan da atəş açırdılar. Bizim əsgərlərimiz o biri sahildən onlara cavab atəşi açırdılar. Güllə yağışı başlanırdı". Zaman keçdikcə qəhrəmanların taleyi əfsanəyə çevrilir, yaddaşlara yazılır. B.Rüstəmov kimi qəhrəmanların həyatını biz bir əfsanə kimi xatırlayırıq. Amma yaxşı olan odur ki, belə qəhrəmanların həyatı unudulmur. Müharibə dövrünün, hətta uşaq yaşında olsa belə, Şəddad Cəfərov kimi şahidləri onları unutmur. Onların haqqında canlı hekayətlər yaradır: "Düşmən geriyə çəkildikcə, körpüləri partladır, keçidləri minalayırdı. Onlar bu yolla döyüşçülərin sürətini azaltmaq istəyidilər. Piyadalara dağılmış körpünü keçmək o qədər də çətin deyildi. Maşınların, tankların və topların dağıdılmış yerlərdən keçməsi çox çətin və təhlükəli idi. Onlar yolda qalaraq xarab olur, sınırdılar. Piyadalar da öz növbəsində itki verirdi. Hücum zamanı döyüşçülər düşmənin basdırdığı minalara toxunaraq həlak olurdular. Lakin buna baxmayaraq, döyüşçülər hücumu davam etdirirdilər. Rüstəmov kəyfiyyatçı olaraq öz silahdaşları kimi artıq atıcı silahların bütün növlərindən istifadə etmək, səssiz sürünmək bacarığına, maskalanma qaydalarına yiyələnmişdi. Kəşfiyyatçılar çox şeyə nail olublar: müdafiə olunmağa, su manelərini dəf etməyə, yüksəklikəri aşmağa, qayalara qalxmağa, ən mürəkkəb izləri itirməyə, saatlarla söhbət etməməyə, siqaret çəkməməyə artıq alışmışdılar. Onlara müxtəlif döyüş fəndlərini öyrətmişdilər. Tank və zirehli transportyorları işə salmağı, sürməyi artıq bilirdilər". B.Rüstəmovun əfsanəyə dönmüş döyüş yolunu belə ustalıqla, canlı təsvir etməklə müəllif ona daha əbədi bir ömür bəxş edib. Bu povest sözün həqiqi mənasında müharibə haqqında çox dəyərli bir ssenaridir. Ölməyən qəhrəmanların həyatlarını daha da əbədiləşdirmək üçün sənədli və bədii filimlər çəkmək çox vacibdir. Və bu əsərin özü də çox dəyərli bir ssenaridir. Düşünmək olar ki, bu yazılarımızla biz filmoqrafların diqqətini cəlb edərik. Günümüzün indiki reallığında onlar müəllifə müraciət edə bilərlər. Hətta bu əsərin əsasında iki müharibənin sintezi ilə bağlı çox dəyərli bir qəhrəmanlıq filmi yaratmaq olar.

* * *

Hər bir döyüşçünün taleyi müəyyən mənada müharibənin taleyidir. Bütövlükdə isə ordunun taleyi müharibənin tarixidir. Bu gün salnaməyə çevrilən və şahidi olduğumuz, yaxud tarixdən məlumat aldığımız müharibələrdən hamısında qələbə də, uğur da, həqiqət də ölümlərlə, qanlarla müşayət olunub. Kəskin savaşlarla qazanılıb. Demək, ayrı-ayrı əsgərlərin igidliyi və qəhrəmanlığı olmasaydı, həqiqətin də təntənəsindən danışmaq artıq olardı.

Yeri gəldikcə Şəddad Cəfərov öz qəhrəmanını digər millətin nümayəndəsi ilə bir araya gətirir. Onların polemikasına şərait yaradır. Hər kəsin həyata münasibətini, milli adət-ənənəyə baxışını düşüncə müstəvisinə çəkərək onların birliyini təmin edir. Yəni düşüncədəki doğmalıq milli fərqlərin təsiredici gücünü azaldır. İnsanlıq ön plana keçir: "Bu illər ərzində əsgər Rüstəmovun da rütbəsi artmışdı. Ona yefreytor, kiçik serjant, baş qvardiya serjantı kimi rütbələr verilmişdi. O bu rütbələrlə müharibənin ən ağır yollarından keçmişdir. Səhər işıqlananda taqım komandirinin köməkçisi serjant Baloğlan Rüstəmova 150 metrlik mövqeyi təhvil verdi və sağollaşmaq vaxtı olduğunu dedi. O, bir neçə dəqiqə də dayanıb fikrə getdi, sanki nəyisə yadına salırdı. Sonra yerdən bir ovuc torpaq götürüb Rüstəmovun ovucuna tökdü. Taqım komandirinin köməkçisi Baloğlana dedi ki, nə vaxtsa əsgərlər öz mövqelərini digər xidmət edənlərə verəndə belə edirdilər. İndi bu torpaq sizindir, siz ondan möhkəm yapışın.

-Yaxşı, - deyə Rüstəmov cavab verdi. - rusların bu adəti mənim çox xoşuma gəlir.

-Bu adət deyil, bu, anddır, - deyə taqım komandirinin müavini bildirdi.

-İndi ayrılaq. - Onlar görüşüb ayrıldılar. Hava artıq işıqlanmışdı. Döyüşçülər səngəri gördülər. Burada yanmış bir tank, faşistlərin kəşfiyyat təyyarəsi və məftillənmiş maneələr var idi. Pulemyotçu əsgər hitlerçilərə çatmaq üçün çox az- iki yüz metrə qədər məsafə qaldığını bildirdi. Rüstəmov uşaqlara xəbərdarlıq etdi ki, qulaqları səsdə olsun. Pulemyotçu bildirdi ki, düşmənə heç cür imkan verməyəcək. Daha sonra o qvardiya baş serjantı Rüstəmova müharibənin ilk günündən vuruşduğunu, indiyə qədər heç bir zədə almadığını söylədi". Döyüş səhnələrinin dəhşəti eyni amal uğrunda savaşan, inamla birləşən müxtəlif xalqların övladlarını qorxutmur. Onlar birbirinin yanında özlərini kifayət qədər güclü görür, yenilməz hiss edirlər. Onların hər birinə elə gəlir ki, birinin ömrü digərinin ömrünün davamıdır. Ona görə də ölüm onların gözlərinin önündə heç bir qorxuncluq kəsb etmir. Əslində çox gücsüz görünür.

Müharibə səhnələrinin canlı təsvirini vermək, yazıçıdan güclü təxəyyül, kifayət qədər əhatəli müşahidə istəyir. O gərək müharibə təsəvvürünü məkanla, zamanla uyğunlaşdıra bilsin. Düşünmək olar ki, Şəddad Cəfərov müharibə səhnələrini verən sənətkar üçün vacib olan bu tələbləri "İgidliyin povesti"ndə kifayət qədər dolğunluğu ilə yerinə yetirə bilib. Bir çox hallarda oxucuya elə gəlir ki, sətirlərin arası döyüş meydanıdır. Və minalar onun yanında partlayır. Dəhşətli gurultusu ilə partlayan bombanın qəlpələri elə indicə ətrafa səpələnəcək. Əlbəttə, bunlar müəllifin şəksiz uğurudur. Daha bir parçanı oxucuda dəqiq və aydın təsəvvür yaratmaq üçün əhatəliliyi ilə təqdim etmək yerinə düşərdi: "Tezliklə iki mina, sonra isə bir neçə mina səngərin yanında partladı. Hər tərəfə torpaq səpələndi, səs-küy qopdu. Elə bil ki, adamın başı üstündən torpaq yox, yağış yağırdı. -Bax indi başlayır, - Rüstəmov dedi. - İndi dörd hissədən ibarət tamaşa başlayacaq.

Bir az keçməmiş dərəliklərdən tanklar görünməyə başladı. Tanklar fillər kimi çox ağır idilər. Döyüş maşınları Rüstəmovun səngərinə doğru irəliləyirdi. Onlar bütün toplardan atəş açırdılar, lakin onları qumbara və qaynar yanacaqla dolu şüşələrlə qarşılayırdılar. Səngərin yanında iki tank dayanaraq alovlandı, dördü isə geriyə döndü. Sürünə-sürünə bizim səngərə doğru hərəkət edən düşmən piyadalarını döyüşçülərimiz atəşə tutmuşdular. Rüstəmov işləyən pulemyotun yanında çömelib daşın üstündə oturdu. Və bölük komandirinə məlumat yazaraq bildirdi ki, heç olmasa, döyüşmək üçün onlara tank əleyhinə iki silah verilsin. Onlar olsa heç bir qüvvə bizi bu yerdən geriyə çəkə bilməz, mövqeyi möhkəm tutmuşuq. Axşama yaxın tank əleyhinə nə lazım idisə hamısı verildi. Qənimət kimi bizə kiçik dodaq qarmonuda gətirildi. Amma onda heç kim çalmağı bilmirdi. Günlər öz axarı ilə keçirdi. Həlelik sakitlik idi. Əsgərlər üçün siqaret çatışmırdı. Onlar söhbət edir, bir-birlərinə öz məktublarını oxuyurdular. Gecənin birində faşistlər yenidən hücuma keçdilər. Rüstəmov atılan fişənglərin işığında düşmənin çıxış xəttindən qalxaraq, eybəcər hala salınmış sahə ilə zəncir şəklində hərəkət etdiyini gördü. Onlar düz pulemyotun qabağına gedirdilər. Baloğlan Əmrah oğlu bu dəfə hitlerçiləri əzməyin çox da asan olmayacağını hiss etdi. O, döyüşçülərə atəş açmaq əmri verdi: - Atəş açın! Lakin faşistlər cəld hərəkətlə irəliləyirdilər. İndi onlar lap yaxınlığımızda idilər. Böyük bir çətinliklə səngərin yanında düşmənin birinci zəncirini qıra bildilər. İkinci zəncir cinah üzrə dağılmağa başladı, üçüncü isə artilleriya atəşinin zolağına düşdü. Tezliklə düşmən hücumu yatırıldı. Səhər tezdən onları əvəz edənlər gəlib çıxdı. Rüstəmov öz mövqeyini təhvil verdi. Həmin vaxt hər şey qurtarmışdı. O, da yerdən bir ovuc torpaq götürüb yeni gəlmiş komandirin əlinin içinə tökdü. - Bax belə, məni öyrədiblər ki, öz mövqeyini döyüşçü yoldaşına verəndə belə edirlər. İndi bu torpaq səníndir, səndə ondan möhkəm yapış.

Rüstəmov sonuncu dəfə səngərə tərəf baxdı. Göyün üzündə raket işıqlandı. O asta-asta yerə düşürdü.Səhərisi gün, sübhdən döyüşçü desantlar bombardmançı təyyarədə havaya qalxdılar. Günəşə görə Rüstəmov təyyarənin cənubqərb istiqamətinə tərəf yan aldığını müəyyən etdi. Bir müddətdən sonra komandir hamıya vacib bir döyüş tapşırığını yerinə yetirmək üçün uçduqlarını dedi.

Vaxt keçirdi. Xüsusi lampa işığı yanan kimi qapılar açıldı. Hamı tez ayağa qalxdı. Kabinənin bortundan tutaraq ehtiyyatla lükə yanaşdılar. Rüstəmov da onların yanında dayanmışdı. Desant komandiri də ehtiyatla lükə yanaşaraq açılan sübh çağının boz rəngli dərinliyinə baxdı və sevinclə dişlərini qıcayaraq - "İrəli" - deyə qışqırdı. Döyüşçülər birbirinin ardınca tullanmağa başladılar. Növbə gəlib Baloğlana çatdı. O, başını irəli uzadaraq suya atılan kimi lükdən tullandı. İlk döyüş başlandı. Sonralar bu döyüşlərin sayı-hesabı olmayacaqdı. Və ilk sevgi kimi bu döyüşlər də həmişəlik olaraq onun yaddaşına həkk olunacaqdı". Bu mətnin özü ayrılıqda götürülmüş hekayədir; əsil savaş hekayətidir. Barıtın tüstüsünü az qala görürük. Ölümü yanımızda hiss edirik. Bu da əlbəttə qeyd etdiyimiz kimi yazıçının ədəbi uğurudur. Təkcə elə müəllifin ilk döyüşü, ilk sevgi ilə müqayisə edərək yaddaşda yaşarılıq kəsb etdiyi haqqındakı qənaəti ədəbi fəlsəfi düşüncəmiz üçün çox dəyərlidir. Əsərdə müəllifin uğurunu təsdiq edən məqamlar çoxdur. Müəllif bir çox hallarda düşməni öz qəhrəmanı ilə üz-üzə gətirənəcən səhnəni qabardır. Və bu qarşılaşma ilə insan təbiətinin ehtiyyatda olan enerjisini də üzə çıxarır.

Bir çox hallarda, ən xırda detallar igidliyin anatomiyasını açmaq üçün müəllifin imkanlarına təkan verir. Məsələn, döyüşə atılma zamanı işarə olaraq yanan lampanın işığı sanki qəhrəmanın qəlbinin işığı kimi qavranılır.

Beləliklə, bir əsərin mahiyyətində xalqların, ölkələrin, insanların talelər qovuşur. Bir çox hallarda bu talelər dəniz dalğası kimi qabarır. Hisslər, duyğular fırtınalara çevrilir. Özünə yol axtarır. Və nəticədə özünə tapınaraq gücünü diktə edə bilir.

Şəddad Cəfərovun "İgidliyin povesti" təkcə qəhrəmanlıq əsəri deyil, həm də hisslər, duyğular əsəridir. Mənəvi gücün yenilməzliyini təlqin edən bədii psixoloji tədqiqat nümunəsidir.

*(Davamı var)*

***Ceyhun ZALLI***